## BƏXTİYAR VAHABZADƏ SİMPOZİUMU

## BƏXTİYAR VAHABZADƏ – TÜRK DÜNYASI TARİXİ, MƏDƏNİYYƏTİ VƏ ƏDƏBİYYATI BEYNƏLXALQ SİMPOZİUMU (2022)




AMEA-nın Folklor İnstitutu, Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU), bu ali məktəbin Şəki və Quba filialları və AMEA-nın Şəki Regional Elmi Mərkəzinin birgə təşkilatçılığı ilə Şəkidə “Bəxtiyar Vahabzadə - türk dünyası tarixi, mədəniyyəti və ədəbiyyatı” mövzusunda beynəlxalq simpozium keçirilib.

Azərbaycan, Türkiyə və dünyanın müxtəlif ölkələrindən alimlərin iştirak etdiyi simpozium onlayn təşkil olunub.

Simpoziumun açılış mərasimi Şəkidə - görkəmli şair Bəxtiyar Vahabzadənin ev-muzeyində keçirilib.

Tədbirdə AMEA-nın Folklor İnstitutunun baş direktoru, akademik Muxtar İmanov, “Dədə Qorqud” filialının müdiri, professor Ramazan Qafarlı, Dilçilik İnstitutunun baş direktoru, professor Nadir Məmmədli, ADPU-nun Şəki filialının direktoru dosent Rafiq Rəsulov, B.Vahabzadənin ev-muzeyinin direktoru Elşən Zəkəriyəbəyli, AMEA-nın Şəki Regional Elmi Mərkəzinin direktoru, dosent Yusif Şükürlü, Türkiyənin İKSAD İnstitutunun prezidenti Lətif Emek istiqlal şairinin yaradıcılıq xüsusiyyətlərindən, müstəqillik ideyalarından, fəlsəfi fikirlərindən, Azərbaycan və türk ədəbiyyatında mövqeyindən söhbət açıblar.

Sonra ADPU-nun Şəki filialında bölmələr üzrə təqdimatlar olub. Akademiyanın, AMEA-nın Şəki Regional Elmi Mərkəzinin Folklorşünaslıq və el sənətləri şöbəsinin, Pedaqoji Universitetin, ADPU-nun Şəki filialının, AMEA-nın Nizami Gəncəvi adına Ədədbiyyat İnstitutunun, Hindistanın Mangalore Universitetinin, Türkiyənin Düzce Universitetinin, Kütahya Dumlupınar Universitetinin, Osmaniye Korkut Ata Universitetinin, İranın İslamic Azad Universitetinin tədqiqatçıları hibrid formatda keçirilən sessiyalarda Bəxtiyar Vahabzadənin bədii yaradıcılığı ilə bağlı dəyərli araşdırmalarını təqdim ediblər.[1]

[1] https://science.gov.az/az/news/open/21185

## BƏXTİYAR VAHABZADƏYƏ HƏSR OLUNMUŞ ONLAYN SİMPOZİUM(2020)




2020-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Dədə Qorqud şöbəsi Türkiyənin İqtisadi İnkişaf İnstitutu ilə birlikdə onlayn formatda "Bəxtiyar Vahabzadə – Azərbaycan tarixi, mədəniyyəti və ədəbiyyatı simpoziumu" keçirib. Folklor İnstitutundan bildirilib ki, simpoziuma Dədə Qorqud şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Ramazan Qafarlı rəhbərlik edib. Simpoziumun plenar iclasında Ramazan Qafarlı və Azərbaycan Dövlət Pedaqoji Universiteti Filologiya fakültəsinin dekanı, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova çıxış ediblər.

"Bəxtiyar Vahabzadə poeziyasında insan və zaman konsepsiyası", "Bəxtiyar Vahabzadə şeirlərinin estetikası", "Bəxtiyar Vahabzadənin yaradıcılığında Azərbaycan ədəbiyyatının tədrisi məsələləri", "Bəxtiyar Vahabzadə yaradıcılığında milli istiqlal motivləri", "Bəxtiyar Vahabzadənin yaradıcılığında cəmiyyət problemləri", "Adını türk ədəbiyyatı tarixinə böyük hərflərlə yazmış Azərbaycan oğlu", "Kitabi-Dədə Qorqud obrazları Bəxtiyar Vahabzadənin yaradıcılığında", "Məni siyasətdə deyil, şeirlərimdə axtarın" və s. mövzularda məruzələr dinlənilib.[2]

## ÜÇÜNCÜ BEYNƏLXALQ BƏXTİYAR VAHABZADƏ – AZƏRBAYCAN TARİXİ, MƏDƏNİYYƏTİ VƏ ƏDƏBİYYATI SİMPOZİUMU(2020)

Simpozium 2020- ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu (Dədə Qorqud şöbəsi) ilə birlikdə, Türkiyənin İqtisadi İnkişaf İnstitutu tərəfindən təşkil olunmuşdur. Simpoziumun əsas məqsədi Vahabzadənin zəngin ədəbi irsini, milli mədəniyyətimizə və tariximizə verdiyi əvəzsiz töhfələri tədqiq etməkdir.

Keçməsi əvvəlcə planlanmış üz-üzə formatda, lakin onlayn formatda həyata keçirilmişdir.

Avropa və Asiya ölkələrindən alimlər iştirak etmişdir.

## BƏXTİYAR VAHABZADƏ SİMPOZİUMU(2012)

[2] https://medeniyyet.info.az/page/news/53622/Bextiyar-Vahabzadeye-hesr-olunmus-onlayn-simpozium.html




2012-ci il tarixində Dekabrın 13-də Qafqaz Universitetində I Beynəlxalq Bəxtiyar Qafqaz Universitetində I Beynəlxalq Bəxtiyar Vahabzadə simpoziumu keçirilirmişdir

AZƏRTAC xəbər verir ki, alim və mütəxəssislərin, tələbələrin, 6 ölkədən olan qonaqların iştirak etdikləri beynəlxalq simpoziumda "Bəxtiyar Vahabzadə və türk dünyası", "Bəxtiyar Vahabzadənin əsərlərində dil xüsusiyyətləri və sənətkarlıq", "Bəxtiyar Vahabzadənin əsərlərində tərbiyə və mənəvi dəyərlər", "Bəxtiyar Vahabzadənin dram əsərləri" mövzularında məruzələr dinlənilmişdir.

Məruzəçilər Azərbaycanın Xalq Şairi, görkəmli alim və pedaqoq, ictimai xadim Bəxtiyar Vahabzadənin zəngin ədəbi və elmi yaradıcılığından, əsərlərinin əhəmiyyətindən bəhs etmişlər.

Beynəlxalq simpozium Təhsil Nazirliyi, Qafqaz Universiteti, Türkiyə Əməkdaşlıq və İnkişaf Agentliyi (TİKA), Şəki Şəhər İcra Hakimiyyəti, Dialoq Avrasiya və digər qurumlar tərəfindən təşkil olunmuşdur. Simpoziuma Azərbaycandan və xaricdən (Türkiyə, Türk dünyası) tədqiqatçılar, elm adamları qatılmışdır.

## TÜRKİYƏDƏ BƏXTİYAR VAHABZADƏYƏ HƏSR OLUNMUŞ SİMPOZİUM KEÇİRİLMİŞDİR (2010)

Ankara, 15 fevral (AZƏRTAC). 2010 -cu ildə Atatürk Mədəniyyət, Dil və Tarix Qurumu, Atatürk Mədəniyyət Mərkəzi, Ərdahan valiliyi, Ərdahan Universiteti və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə fevralın 13-14-də Ərdahan şəhərində "Azadlığın səsi: Bəxtiyar Vahabzadə" mövzusunda simpozium keçirilmişdir.

Türkiyə və Azərbaycandan gəlmiş alimlər görkəmli şairin həyat və yaradıcılığından, türk dünyası ədəbiyyatına töhfələrindən bəhs etmişlər.

Naxçıvan Dövlət Universitetinin rektoru, akademik İsa Həbibbəyli dahi Azərbaycan şairinin qardaş ölkədə anılmasını xalqlarımız arasında birliyin təzahürü kimi qiymətləndirmiş, Türkiyə ziyalılarının Azərbaycan mədəniyyətinə verdiyi əhəmiyyətin göstəricisi olduğunu bildirmişdir.

Bəxtiyar Vahabzadənin Türkiyə və Azərbaycan xalqlarına xitabla söylədiyi "bir ananın iki övladı, bir ağacın iki budağı" kəlamının bu gün Ərdahanda yaşandığını vurğulayan natiq demişdir ki, şair türk dünyasının birliyinin Türkiyə və Azərbaycanın birliyi ilə mümkün olacağını söyləmişdir.

Ərdahan Universitetinin rektoru, professor Ramazan Qorxmaz tədbirin əsas məqsədinin Türkiyə-Azərbaycan dostluğunun möhkəmlənməsinə töhfə vermək olduğunu demişdir.

Simpozium iştirakçıları daha sonra Ərdahanın görməli yerləri, tarixi və mədəniyyət abidələri ilə tanış olmuş, məşhur türk aşığı Şərəf Taşlıovanın konsertini izləmişlər.[3]

[3] https://medeniyyet.info.az/page/news/53622/Bextiyar-Vahabzadeye-hesr-olunmus-onlayn-simpozium.html